## Konstitusiya Məhkəməsi haqqında[1]

-

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

-

B i r i n c i   f ə s i l

-

### ÜMUMİ MÜDDƏALAR

-

***M a d d ə   1 .*** *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təyinatı*

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (bundan sonra "Konstitusiya Məhkəməsi" adlanacaq) Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya mühakiməsi orqanıdır.

***M a d d ə   2 .*** *Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsasları*

Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsasları Azərbaycan Respublikasının Konstitusiyası və bu Qanun təşkil edir.

***M a d d ə   3 .*** *Konstitusiya Məhkəməsinin əsas məqsəd və vəzifələri*

Konstitusiya Məhkəməsinin əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdir.

Konstitusiya Məhkəməsinin əsas vəzifələri Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş məsələləri həll etməkdən, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin dördüncü hissəsində göstərilmiş orqanların sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasını və qanunlarını şərh etməkdən və Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirməkdən ibarətdir.

***M a d d ə   4 .*** *İnsan hüquqlarının və azadlıqlarının Konstitusiya Məhkəməsində müdafiəsi*

Konstitusiya Məhkəməsi öz fəaliyyətində insan hüquqlarını və azadlıqlarını müdafiə etməlidir.

Şəxsin hüquqları və azadlıqları qüvvədə olan normativ aktlarla pozulduqda o, müvafiq məhkəmələrin vasitəsi ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edərək məsələnin Konstitusiya Məhkəməsinə sorğu vermək yolu ilə göndərilməsini xahiş edə bilər. Bu hüququn təmin olunması qaydası "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə, Azərbaycan Respublikasının mülki-prosessual və cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilir.

***M a d d ə   5 .*** *Konstitusiya Məhkəməsinin fəaliyyətinin əsas prinsipləri*

Konstitusiya Məhkəməsinin fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının aliliyi, ədalət, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurulur.

***M a d d ə   6 .*** *Konstitusiya Məhkəməsinin müstəqilliyinin əsasları*

Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkili, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, siyasi partiyalardan, ictimai birliklərdən, həmkarlar ittifaqlarından, onların vəzifəli şəxslərindən, həmçinin hüquqi və fiziki şəxslərdən asılı deyildir.

İ k i n c i   f ə s i l

### KONSTİTUSİYA MƏHKƏMƏSİNİN TƏŞKİLİNİN VƏ FƏALİYYƏTİNİN ƏSASLARI

***M a d d ə   7 .*** *Konstitusiya Məhkəməsinin tərkibi, təşkili və səlahiyyətləri*

Konstitusiya Məhkəməsinin tərkibi, təşkili və səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 86-cı, 88-ci, 95-ci, 104-cü, 107-ci, 109-cu, 125-ci, 130-cu, 153-cü, 154-cü maddələri ilə tənzimlənir.

***M a d d ə   8 .*** *Konstitusiya Məhkəməsi hakiminin andı*

Konstitusiya Məhkəməsinin hakimi təyin edildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında belə bir and içir:

"Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi səlahiyyətlərini şərəf və ləyaqətlə yerinə yetirəcəyimə, Azərbaycan Respublikası Konstitusiyasını qoruyacağıma, baxdığım məsələləri hüquq və ədalət əsasında həll edəcəyimə and içirəm".

Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətləri and içdiyi vaxtdan başlanır.

***M a d d ə   9 .*** *Konstitusiya Məhkəməsinin hakimliyinə namizədlərə aid tələblər*

Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə görə yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsili və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin II hissəsinə görə Konstitusiya Məhkəməsinin hakimləri heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

***M a d d ə   1 0 .*** *Konstitusiya Məhkəməsi hakimlərinin səlahiyyət müddəti*

Konstitusiya Məhkəməsinin hakimləri 10 il müddətinə təyin edilirlər.

Səlahiyyət müddəti qurtardıqdan sonra Konstitusiya Məhkəməsinin hakimi yenidən həmin vəzifəyə yalnız bir dəfə təyin edilə bilər.

***M a d d ə   1 1 .*** *Konstitusiya Məhkəməsi hakimlərinin müstəqilliyi*

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin I hissəsinə görə Konstitusiya Məhkəməsinin hakimləri öz səlahiyyətlərini həyata keçirərkən müstəqildirlər, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və bu Qanuna tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər.

***M a d d ə   1 2 .*** *Konstitusiya Məhkəməsi hakimlərinin toxunulmazlığı*

Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin I—III hissələrinə görə Konstitusiya Məhkəməsinin hakimləri toxunulmazdır.

Konstitusiya Məhkəməsinin hakimi cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və ya həbs edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa və gətirilməyə məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Konstitusiya Məhkəməsi hakiminin toxunulmazlığı həmçinin onun mənzilinə, xidməti otağına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil olunur.

Cinayət və ya inzibati hüquq pozuntusu törətməkdə şübhə edilən şəxs qismində tutulmuş Konstitusiya Məhkəməsinin hakimi şəxsiyyəti müəyyənləşdiriləndən sonra dərhal azad edilməlidir. Belə olduqda Konstitusiya Məhkəməsinin hakimini tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir. Azərbaycan Respublikasının Baş prokuroru cinayət və ya inzibati hüquq pozuntusu törətməkdə şübhə edilən şəxs qismində tutulmuş Konstitusiya Məhkəməsi hakiminin tutulmasının qanuniliyini yoxlamalıdır.

Hərəkətlərində cinayət əməlinin əlamətləri olan Konstitusiya Məhkəməsinin hakimi Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin IV və V hissələrində nəzərdə tutulmuş qaydada vəzifədən kənarlaşdırıla bilər.

Vəzifədən kənarlaşdırılmış Konstitusiya Məhkəməsinin hakimi yalnız Konstitusiya Məhkəməsinin hakiminə müəyyən edilmiş vəzifə maaşı alır.

Vəzifədən kənarlaşdırılmış Konstitusiya Məhkəməsinin hakimi yalnız Azərbaycan Respublikası Baş prokurorunun qərarına əsasən cinayət məsuliyyətinə cəlb oluna, eləcə də həbsə alına bilər.

Vəzifədən kənarlaşdırılmış Konstitusiya Məhkəməsinin hakimi barədə bəraət hökmü çıxarıldıqda, habelə ibtidai istintaqda işin icraatına bəraətverici əsaslarla (cinayət hadisəsinin olmadığına, cinayət tərkibinin olmadığına, cinayətdə təqsiri sübuta yetirilmədiyinə görə) xitam verildikdə onun səlahiyyətləri bərpa olunur. Başqa hallarda Konstitusiya Məhkəməsinin hakimi barədə ibtidai istintaqda işin icraatına xitam verilə bilməz.

Konstitusiya Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsindəki fəaliyyətinə, səsverməyə, söylədiyi fikrə görə hüquqi məsuliyyətə cəlb oluna bilməz, ondan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

***Maddə 13.*** *Konstitusiya Məhkəməsi sədrinin və sədr müavininin təyin edilməsi*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 109-cu maddəsinin 9-cu bəndinə, 130-cu maddəsinin II hissəsinə görə Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Konstitusiya Məhkəməsinin hakimlərini təyin etdikdən sonra Konstitusiya Məhkəməsi sədrinin və sədr müavininin təyin edilməsi məsələsi Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun həll edilir.

Konstitusiya Məhkəməsinin sədri, sədr müavini yalnız öz xahişinə görə vəzifədən azad edilirlər. Bu halda onlar Konstitusiya Məhkəməsinin hakimi vəzifəsində qalırlar.

***Maddə 14.*** *Konstitusiya Məhkəməsinin hakimlərinin hüquqları*

Konstitusiya Məhkəməsi hakimlərinin aşağıdakı hüquqları vardır:

Konstitusiya Məhkəməsinin bütün iclaslarında iştirak etmək;

Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid məsələlər üzrə qərarlar qəbul edilərkən səsvermədə iştirak etmək;

Konstitusiya Məhkəməsində məsələlərə baxılarkən işdə iştirak edən tərəflərə və maraqlı subyektlərə suallar vermək;

Konstitusiya Məhkəməsində baxılmağa hazırlanan məsələ barəsində hər hansı sənədi və başqa məlumatı qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, siyasi partiyalardan, ictimai birliklərdən, həmkarlar ittifaqlarından, onların vəzifəli şəxslərindən, həmçinin hüquqi və fiziki şəxslərdən tələb etmək, habelə vəzifəli şəxslərin bu işə dair izahatlarını dinləmək;

Konstitusiya Məhkəməsinin qərarı ilə razı olmadıqda xüsusi rəy vermək;

bu Qanunda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

***Maddə 15.*** *Konstitusiya Məhkəməsinin hakimlərinin vəzifələri*

Konstitusiya Məhkəməsinin hakimləri:

öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutmalı və onun aliliyini təmin etməli;

Konstitusiya Məhkəməsində məsələlərə baxılarkən işlərə hüquq və ədalət əsasında obyektiv və qərəzsiz yanaşmalı;

Konstitusiya Məhkəməsinin iclaslarını üzürsüz səbəbdən buraxmamalı;

Konstitusiya Məhkəməsində baxılan məsələlər üzrə səsvermədə iştirak etməli;

Konstitusiya Məhkəməsi hakiminin yüksək adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli;

Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid məsələlərin hazırlanması və baxılması ilə əlaqədar Konstitusiya Məhkəməsi sədrinin və sədr müavininin tapşırıqlarını yerinə yetirməli;

bu Qanunun 9-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş tələbləri pozmamalı;

Konstitusiya Məhkəməsində baxılan məsələ haqqında qərar qəbul edilənədək məsələnin mahiyyətinə dair fikir söyləməməlidirlər.

***Maddə 16.*** *Konstitusiya Məhkəməsinin sədri*

Konstitusiya Məhkəməsinin sədri:

qanunvericilik, icra və başqa məhkəmə hakimiyyəti orqanları ilə, yerli özünüidarə orqanları ilə, siyasi partiyalarla, ictimai birliklərlə, həmkarlar ittifaqı təşkilatları ilə xarici dövlətlər və beynəlxalq təşkilatlarla, kütləvi informasiya vasitələri ilə, onların vəzifəli şəxsləri ilə, habelə digər hüquqi və fiziki şəxslərlə münasibətlərdə Konstitusiya Məhkəməsini təmsil edir;

Konstitusiya Məhkəməsinin işini təşkil edir;

Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün Konstitusiya Məhkəməsinin iclaslarına çıxarır;

Konstitusiya Məhkəməsinin iclaslarını çağırır və iclaslara sədrlik edir;

Konstitusiya Məhkəməsinin sədr müavininin həll etdiyi məsələlərin dairəsini müəyyənləşdirir;

Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid məsələlərin hazırlanması və baxılması ilə əlaqədar Konstitusiya Məhkəməsinin hakimlərinə tapşırıqlar verir;

Azərbaycan Respublikasının Konstitusiyasında və bu Qanunda nəzərdə tutulmamış sorğuları və başqa müraciətləri geri qaytarır;

Konstitusiya Məhkəməsinin saxlanması və fəaliyyətinin təmin edilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsaitə dair sərəncam verir;

Konstitusiya Məhkəməsinin aparatına rəhbərlik edir;

bu Qanunda nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirir;.

Konstitusiya Məhkəməsinin sədri Konstitusiya Məhkəməsinin hakiminə mənsub olan bütün hüquqlara malikdir və bütün vəzifələri daşıyır.

***M a d d ə 1 7 .*** *Konstitusiya Məhkəməsi sədrinin müavini*

Konstitusiya Məhkəməsi sədrinin müavini Konstitusiya Məhkəməsi sədrinin müəyyənləşdirdiyi məsələləri həll edir, Konstitusiya Məhkəməsi sədrinin tapşırığı ilə onun ayrı-ayrı funksiyalarını yerinə yetirir və Konstitusiya Məhkəməsinin sədri olmadıqda, yaxud öz vəzifələrini həyata keçirə bilmədikdə onu əvəz edir.

Konstitusiya Məhkəməsi sədrinin müavini Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid məsələlərin hazırlanması və baxılması ilə əlaqədar Konstitusiya Məhkəməsi sədrinin tapşırıqlarını yerinə yetirməlidir.

***M a d d ə 1 8 .*** *Konstitusiya Məhkəməsinin hakimlərinin hüquq bərabərliyi*

Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid bütün məsələlərin həllində Konstitusiya Məhkəməsi hakimlərinin, o cümlədən Konstitusiya Məhkəməsi sədrinin və onun müavininin hüquqları bərabərdir.

***M a d d ə 1 9 .*** *Konstitusiya Məhkəməsinin hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi*

Konstitusiya Məhkəməsinin hakiminin səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

1) vəfat etdikdə;

2) vəzifədən könüllü çıxmaq barədə yazılı ərizə verdikdə;

3) Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya xarici dövlət qarşısında öhdəlik götürdükdə;

4) barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda;

5) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə təsdiq edildikdə;

6) məhkəmənin qərarı ilə ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

7) Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsində Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə namizədlər üçün tələblərə uyğun olmadığı aşkar edilərək vəzifəyə təyin edilməsi etibarsız sayıldıqda;

8) Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin II hissəsində nəzərdə tutulmuş məhdudiyyətləri pozduqda;

9) üzürsüz səbəbdən dalbadal üç dəfə və ya il ərzində üzürsüz səbəbdən on dəfə Konstitusiya Məhkəməsinin iclaslarında iştirak etmədikdə;

10) Konstitusiya Məhkəməsində baxılan məsələyə dair səsvermədə iştirak etməkdən imtina etdikdə;

11) dörd aydan az olmayan müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirmədikdə və bu barədə Konstitusiya Məhkəməsinin təşkil etdiyi xüsusi həkim komissiyasının xəstəliyi təsdiq edən rəyi olduqda.

Bu maddənin birinci hissəsinin 1—6-cı bəndlərində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında məsələ birbaşa Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun həll edilir.

Bu maddənin birinci hissəsinin 6—11-ci bəndlərində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında məsələnin Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun həll edilməsi üçün Konstitusiya Məhkəməsi təklif verir.

### Ü ç ü n c ü f ə s i l

## KONSTİTUSİYA MƏHKƏMƏSİNDƏ HƏYATA KEÇİRİLƏN İCRAATIN PRİNSİPLƏRİ

***M a d d ə 2 0 .*** *Qərəzsizlik, ədalət, tərəflərin hüquq bərabərliyi*

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin II hissəsinə görə Konstitusiya Məhkəməsində həyata keçirilən icraat zamanı hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və Azərbaycan Respublikasının Konstitusiyasına və bu Qanuna müvafiq baxırlar.

***M a d d ə 2 1 .*** *İcraatın müstəqilliyi*

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin III hissəsinə görə hər hansı bir şəxs tərəfindən və hər hansı səbəbdən bilavasitə və ya dolayı yolla Konstitusiya Məhkəməsində həyata keçirilən icraata məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.

Bu cür hərəkətlərə yol verən şəxslər qanunla müəyyən edilmiş qaydada hüquqi məsuliyyət daşıyırlar.

***M a d d ə 2 2 .*** *Açıqlıq prinsipi*

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin V hissəsinə görə Konstitusiya Məhkəməsində işlərin icraatı açıq aparılır.

İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, Konstitusiya Məhkəməsi açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir və ya vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.

Konstitusiya Məhkəməsinin icraatı şifahi aparılır və Konstitusiya Məhkəməsinin iclasları stenoqrama alınır.

Konstitusiya Məhkəməsinin açıq iclaslarında Konstitusiya Məhkəməsində akkreditə olunmuş kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edə bilərlər.

Konstitusiya Məhkəməsinin iclası haqqında məlumat iclasa azı beş gün qalmış rəsmi dövlət qəzetində dərc edilir. Təxirəsalınmaz hallarda bu qaydaya riayət etmək mümkün olmayanda Konstitusiya Məhkəməsi iclasının keçirilməsi vaxtı haqqında məlumat televiziya və radio ilə elan edilməlidir.

***M a d d ə 2 3 .*** *Çəkişmə prinsipi*

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin VII hissəsinə görə Konstitusiya icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir.

Konstitusiya Məhkəməsi tərəflərin və maraqlı subyektlərin sübutları və dəlilləri ilə bağlı deyildir və baxılan məsələlərin

hərtərəfli, tam və obyektiv araşdırılmasına nail olmalıdır.

***M a d d ə  2 4 .*** *İcraatın apırıldığı dil*

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin X hissəsinə görə Konstitusiya Məhkəməsində həyata keçirilən icraat Azərbaycan Respublikasının dövlət dilində aparılır.

Konstitusiya Məhkəməsində baxılan işin iştirakçısı olan və icraatın aparıldığı dili bilməyən şəxslərə işin bütün materiallarının onların bildiyi dilə tərcüməsi və Konstitusiya Məhkəməsinin iclaslarında ana dilində çıxış etməsi təmin edilir.

***M a d d ə  2 5 .*** *Kollegiallıq prinsipi*

Konstitusiya Məhkəməsinin iclasları kollegial aparılır.

***M a d d ə  2 6 .*** *Konstitusiya Məhkəməsində həyata keçirilən icraatın bilavasitəliyi*

Konstitusiya Məhkəməs i öz səlahiyyətlərinə aid məsələlərə baxarkən işə dair sənədləri, materialları, sübutları bilavasitə araşdırmalı, tərəfləri, maraqlı subyektləri, şahidləri, ekspertləri dinləməli, baxılan sənədləri iclasda elan etməlidir.

D ö r d ü n c ü  f ə s i l

## KONSTİTUSİYA MƏHKƏMƏSİNİN İCLASLARI

***M a d d ə  2 7 .*** *Konstitusiya Məhkəməsi iclasının səlahiyyətli olması*

Konstitusiya Məhkəməsinin iclası azı 6 hakim iştirak etdikdə səlahiyyətlidir.

***M a d d ə  2 8 .*** *Konstitusiya Məhkəməsi iclasının aparılmasının ümumi qaydaları*

Konstitusiya Məhkəməsinin hakimləri məhkəmə iclas salonuna girərkən məhkəmə iclasının katibi elan edir: “Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi gəlir, xahiş edirəm, ayağa qalxın”. Məhkəmə iclas salonunda olanların hamısı ayağa qalxmalı, sonra Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin dəvəti ilə öz yerlərini tutmalıdırlar.

Konstitusiya Məhkəməsinin iclasını Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən aparır. Sədrlik edən iclası açır və gündəlikdə duran məsələlər haqqında məlumat verir. İclasın gedişində sədrlik edən fasilə elan edə bilər. İşi bir iş günü ərzində başa çatdırmaq mümkün olmadıqda sədrlik edən Konstitusiya Məhkəməsinin iclasında fasilə elan edir və iclasın yenidən başlanması vaxtı haqqında məlumat verir.

Konstitusiya Məhkəməsi iclasının gündəliyinə daxil olan məsələlər başa çatdıqda Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən iclası bağlı elan edir.

Konstitusiya Məhkəməsinin hakimləri məhkəmə iclas salonunu tərk edərkən məhkəmə iclas salonunda olanların hamısı ayağa qalxmalıdır.

***M a d d ə  2 9 .*** *Konstitusiya Məhkəməsinə verilən sorğuların və müraciətlərin geri götürülməsi*

Konstitusiya Məhkəməsinə sorğu və ya müraciət vermiş orqanın Konstitusiya Məhkəməsinin həmin sorğuya və ya müraciətə baxılmasına həsr edilmiş iclası başlanana qədər öz sorğusunu və ya müraciətini geri götürmək hüququ vardır.

***M a d d ə  3 0 .*** *Konstitusiya Məhkəməsi iclasının təxirə salınması və ya başqa vaxta keçirilməsi*

Aşağıdakı hallarda Konstitusiya Məhkəməsinin təyin olunmuş iclası təxirə salına və ya başlanmış iclas başqa vaxta keçirilə bilər:

1) Konstitusiya Məhkəməsinin tərkibində yetərsay olmadıqda;
2) Konstitusiya Məhkəməsinin iclasında iştirak etməli hər hansı tərəf, maraqlı subyekt, şahid, ekspert iclasda iştirak etmədikdə, əgər bu hal işə hərtərəfli, tam və obyektiv baxılmasına mənfi təsir göstərə bilərsə;
3) Konstitusiya Məhkəməsinin tələb etdiyi sənədlər və materillar təqdim olunmadıqda və ya vaxtında təqdim olunmadıqda;
4) Konstitusiya Məhkəməsi tərəflərin və ya maraqlı subyektlərin iclası təxirə salmaq və ya başqa vaxta keçirmək haqqında əsaslandırılmış vəsatətlərini təmin etdikdə;
5) Konstitusiya Məhkəməsinin iclasında baxılan məsələnin hərtərəfli, tam və obyektiv araşdırılmasına maneçilik törədən başqa hallar olduqda.

***M a d d ə  3 1 .*** *Konstitusiya Məhkəməsi iclasının hazırlanması*

Konstitusiya Məhkəməsinə sorğu gəldikdə və ya Azərbaycan Respublikasının Konstitusiyası ilə Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid edilmiş məsələlərin həlli üçün Konstitusiya Məhkəməsinin sədri Konstitusiya Məhkəməsinin hakimlərindən birini məsələ üzrə məruzəçi təyin edir.

Məruzəçi-hakim məsələni hərtərəfli öyrənir və bu Qanunda nəzərdə tutulmuş müddətdə Konstitusiya Məhkəməsinin həmin məsələyə dair iclasını hazırlayır: zəruri sənədləri və materialları toplayır; sorğunu tərəflərə, başqa növ sənədi isə maraqlı subyektlərə təqdim edir və məsələyə dair onların fikrini öyrənir; şahidlərin, ekspertlərin, digər şəxslərin iclasa çağırılmasını təşkil edir; məsələyə hərtərəfli, tam və obyektiv baxılması üçün başqa zəruri tədbirləri görür, məsələ üzrə məruzə hazırlayır.

Məruzəçi-hakim iclasın hazırlanması ilə əlaqədar bütün tədbirləri Konstitusiya Məhkəməsi adından həyata keçirir.

***M a d d ə  3 2 .*** *Konstitusiya işinin tərtib edilməsi*

Konstitusiya Məhkəməsinin iclasına hazırlıq mərhələsi başa çatdırıldıqdan sonra konstitusiya işi tərtib olunur. Konstitusiya işinə aşağıdakı sənədlər daxil edilir:

1) sorğu, müraciət, ərizə və ya konstitusiya işinin başlanmasına səbəb olan başqa sənəd;
2) sorğuya, müraciətə, ərizəyə və ya konstitusiya işinin başlanmasına səbəb olan başqa sənədə qoşulan materiallar;
3) məruzəçi-hakimin konstitusiya işinə qoşduğu materiallar;
4) konstitusiya işi üzrə ekspert cəlb edilmişsə, onun rəyi;
5) tərəflərin və ya maraqlı subyektlərin qoşduğu əlavə materiallar;
6) konstitusiya işi ilə əlaqədar başqa sənədlər;
7) məruzəçi-hakimin məruzəsi.

Konstitusiya Məhkəməsinin hakimləri konstitusiya işi tərtib edildikdən sonra onunla tanış ola bilərlər.

***M a d d ə  3 3 .*** *Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən*

Konstitusiya Məhkəməsinin iclasına Konstitusiya Məhkəməsinin sədri, o olmadıqda, yaxud onun tapşırığı ilə Konstitusiya Məhkəməsinin sədrinin müavini, onlar olmadıqda isə Konstitusiya Məhkəməsinin yaşca ən böyük hakimi sədrlik edir. Məruzəçi-hakim Konstitusiya Məhkəməsinin iclasına sədrlik edə bilməz.

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən:

iclası aparır;

tərəflərin və ya maraqlı subyektlərin öz fikirlərini sərbəst ifadə etməsinə şərait yaradır;

konstitusiya işinə hərtərəfli, tam və ya obyektiv baxılmasına imkan yaradır;

şahidlərin və ekspertlərin dinlənilməsini təşkil edir;

tərəflərin və ya maraqlı subyektlərin bir-birinə, şahidlərə və ekspertlərə sual verməsinə icazə verir (Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən baxılan konstitusiya işinə aid olmayan və ya yönəldici xarakter daşıyan sualların verilməsinə yol verməməlidir);

tərəflərin, maraqlı subyektlərin iclas zamanı verdikləri vəsatətləri Konstitusiya Məhkəməsinin müzakirəsinə çıxarır;

tərəflər, maraqlı subyektlər, şahidlər və ekspertlər konstitusiya işinin mahiyyəti ilə əlaqəsi olmayan məsələlərdən danışdıqda, onların sözünü kəsir;

iclas salonunda qaydanın gözlənilməsinə nəzarət edir;

iclas salonunda qaydanı pozan şəxslərin iclas salonundan çıxarılması haqqında sərəncam verir;

müşavirə otağında Konstitusiya Məhkəməsinin hakimlərinin səsverməsini təşkil edir;

Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarı elan edir.

***M a d d ə 3 4 .*** *Konstitusiya Məhkəməsinin iclasında Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətləri*

Konstitusiya Məhkəməsinin iclasında Konstitusiya Məhkəməsinin hakimi:

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənə suallar verə bilər;

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin icazəsi ilə məruzəçi-hakimə, tərəflərə, maraqlı subyektlərə, şahidlərə və ekspertlərə suallar verə bilər;

Konstitusiya Məhkəməsinin iclasında təqdim edilmiş vəsatətlərlə və başqa materiallarla tanış ola bilər;

iclasın aparılmasına dair fikir söyləyə bilər;

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edəndən iclasda qaydanın təmin olunmasını tələb edə bilər.

Konstitusiya Məhkəməsinin hakimi müşavirə otağında Konstitusiya Məhkəməsinin qəbul ediləcək qərarına dair fikir söyləyə bilər, qərarın lehinə və ya əleyhinə səs verə bilər.

B e ş i n c i f ə s i l

## KONSTİTUSİYA İCRAATI

***M a d d ə 3 5 .*** *Konstitusiya Məhkəməsində həyata keçirilən icraatın üsulları və növləri*

Konstitusiya Məhkəməsində icraat aşağıdakı iki üsulla həyata keçirilir:

1) konstitusiya məhkəmə icraatı;

2) xüsusi konstitusiya icraatı.

Konstitusiya Məhkəməsində baxılan konstitusiya işləri üzrə Konstitusiya Məhkəmə icraatı aşağıdakı növlərdə həyata keçirilir:

1) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün verilmiş sorğularla əlaqədar işlərin icraatı;

2) siyasi partiyaların və digər ictimai birliklərin ləğv edilməsi barədə sorğularla əlaqədar işlərin icraatı;

3) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğular üzrə işlərin icraatı.

Konstitusiya Məhkəməsində baxılan konstitusiya işləri üzrə xüsusi konstitusiya icraatının aşağıdakı növləri həyata keçirilir:

1) Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi üçün verilən sorğularla əlaqədar işlərin icraatı;

2) Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciəti ilə əlaqədar işlərin icraatı;

3) Azərbaycan Respublikası Prezidentinin istefa ərizəsinə baxılması ilə əlaqədar işlərin icraatı;

4) Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması məsələsi ilə əlaqədar işlərin icraatı;

5) Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi ilə əlaqədar işlərin icraatı;

6) yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi ilə əlaqədar işlərin icraatı;

7) Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair Konstitusiya Məhkəməsinin rəyinin çıxarılması ilə əlaqədar işlərin icraatı.

***M a d d ə 3 6 .*** *Konstitusiya məhkəmə icraatında tərəflər*

Konstitusiya məhkəmə icraatının tərəfləri sorğuverənlər və cavabverənlərdir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinə görə konstitusiya məhkəmə icraatında sorğuverənlər Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ola bilərlər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinə görə konstitusiya məhkəmə icraatında aşağıdakılar cavabverən ola bilərlər:

1) sorğuverənin fikrinə görə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğun olmayan normativ hüquqi aktı qəbul etmiş orqan;

2) sorğuverənin fikrinə görə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan rəhbər göstərişləri qəbul etmiş Azərbaycan Respublikasının Ali Məhkəməsi;

3) sorğuverənin fikrinə görə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında həm də

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) uyğun olmayan bələdiyyə aktını qəbul etmiş yerli özünüidarə orqanı;

4) sorğu verənin fikrinə görə Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olmayan Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqaviləsini imzalamış vəzifəli şəxs;

5) sorğu verənin fikrinə görə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan Azərbaycan Respublikasının hökumətlərarası müqaviləsini imzalamış vəzifəli şəxs;

6) ləğv edilməsi sorğuverən tərəfindən tələb olunan siyasi partiya və ya ictimai birlik;

7) sorğuverənin səlahiyyətlər bölgüsünün pozulmasında təqsirləndirdiyi qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanı.

Konstitusiya məhkəmə icraatında sorğuverənləri və cavabverənləri onların qanuni nümayəndələri təmsil edə bilərlər.

***M a d d ə 3 7 .*** *Xüsusi konstitusiya icraatında maraqlı subyektlər*

Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmuş hallarla əlaqədar Konstitusiya Məhkəməsinə müraciət etmiş orqanlar və bu cür Müraciətlər əsasında mənafelərinə toxunulan orqanlar və şəxslər xüsusi Konstitusiya icraatının maraqlı subyektləridir.

Xüsusi konstitusiya icraatında maraqlı subyektləri onların qanuni nümayəndələri təmsil edə bilərlər.

***M a d d ə 3 8 .*** *Tərəflərin və maraqlı subyektlərin hüquq və vəzifələri*

Tərəflərin və maraqlı subyektlərin konstitusiya işinin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək, onların surətini çıxarmaq hüququ vardır. Konstitusiya Məhkəməsinin iclasında konstitusiya işinə baxılarkən tərəflər və maraqlı subyektlər etirazlar verə bilər, sübutlar təqdim edə bilər, sübutların tədqiqində iştirak edə bilər, bir-birinə, şahidlərə və ekspertlərə suallar verə bilər, vəsatət verə bilər, onlara verilən suallara cavab verə bilər, başqa tərəfin vəsatətlərinə, sübutlarına və çıxışlarında söylədikləri fikirlərə etiraz edə bilər, yekun çıxışı edə və ya yekun sözü söyləyə bilərlər.

Tərəflər və maraqlı subyektlər Konstitusiya Məhkəməsinə hörmət etməyə, xüsusi konstitusiya icraatının tələblərini gözləməyə borcludurlar. Tərəflər və maraqlı subyektlər Konstitusiya Məhkəməsinə çağırıldıqları vaxtda gəlməli, Konstitusiya Məhkəməsində qəbul edilmiş qaydaya hörmətlə yanaşmalı, Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin sərəncamlarını dərhal yerinə yetirməlidirlər.

***M a d d ə 3 9 .*** *Şahid*

Konstitusiya Məhkəməsinin iclasında baxılan konstitusiya işi üzrə hər hansı halı bilən şəx s şahid adlanır. Sorğuverənin, cavabverənin, maraqlı subyektin təklifi ilə və ya Konstitusiya Məhkəməsinin qərarı ilə şahid ifadə vermək üçün Konstitusiya Məhkəməsinə çağırıla bilər. Şahid konstitusiya işi üzrə müəyyən edilməli olan ona məlum hallar haqqında ifadə verməlidir.

Şahid Konstitusiya Məhkəməsinə hörmət etməyə Konstitusiya icraatının tələblərini gözləməyə borcludur. Şahid Konstitusiya Məhkəməsinə çağırıldığı vaxtda gəlməli, Konstitusiya Məhkəməsində qəbul edilmiş qaydaya hörmətlə yanaşmalı, Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin sərəncamlarını dərhal yerinə yetirməlidir.

Bilərəkdən yalan ifadələr verən və ya ifadə verməkdən imtina edən şahid Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş cinayət məsuliyyəti daşıyır.

***M a d d ə 4 0 .*** *Ekspert*

Konstitusiya Məhkəməsinin iclasında baxılan konstitusiya işi üzrə elmi və ya başqa xüsusi biliyə malik olan şəxsi Konstitusiya Məhkəməsi, məruzəçi-hakim, tərəflər və ya maraqlı subyektlər ekspert kimi dəvət edə bilərlər.

Ekspert ona verilən suallara obyektiv və əsaslandırılmış cavab verməlidir. Ekspert suallara cavab vermək üçün konstitusiya işinin bütün materialları ilə tanış olmaq və zəruri əlavə materiallarla tanış edilmək haqqında vəsatətlə Konstitusiya Məhkəməsinə müraciət edə bilər. Ekspert onda olan materialları verilmiş suallara cavab vermək üçün yetərli saymadıqda, yaxud verilmiş suallara cavab vermək üçün zəruri biliyə malik olmadıqda bu barədə Konstitusiya Məhkəməsinə xəbər verməlidir. Ekspert Konstitusiya Məhkəməsinin iclasında sədrlik edənin icazəsi ilə ona verilmiş suallara cavab vermək üçün tərəflərə, maraqlı subyektlərə və şahidlərə sual verə bilər.

Ekspert Konstitusiya Məhkəməsinə hörmət etməyə, konstitusiya icraatının tələblərini gözləməyə borcludur. Ekspert Konstitusiya Məhkəməsinə çağırıldığı vaxtda gəlməli, Konstitusiya Məhkəməsində qəbul edilmiş qaydaya hörmətlə yanaşmalı, Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin sərəncamlarını dərhal yerinə yetirməlidir.

***M a d d ə 4 1 .*** *Konstitusiya Məhkəməsində konstitusiya işinə baxılmasının başlanması*

Konstitusiya Məhkəməsində konstitusiya işinə baxılmasının onun iştirakçılarının məhkəməyə gəlməsinin yoxlanılması ilə başlanır.

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən tərəflərin, maraqlı subyektlərin, şahidlərin, ekspertlərin məhkəməyə gəlməsi və iştirak etməyənlərin gəlməməsinin səbəbləri haqqında məlumat vermək üçün məhkəmə iclasının katibinə söz verir.

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən konstitusiya işinin adını, habelə Konstitusiya Məhkəməsinin iclasda iştirak edən tərkibini, məhkəmə iclasının katibini, tərəfləri, maraqlı subyektləri elan edir və lazım gəldikdə tərəflərin, maraqlı subyektlərin səlahiyyətlərini yoxlayır.

***M a d d ə 4 2 .*** *Konstitusiya işinə baxılmasında iştirak edən şəxslərə onların hüquq və vəzifələrinin izah edilməsi*

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən konstitusiya işinə baxılmasında iştirak edən şəxslərin hər birinə onların hüquq və vəzifələrini izah edir.

***M a d d ə 4 3 .*** *Konstitusiya işinə baxılmasında iştirak edən şəxslərin Konstitusiya Məhkəməsinin iclasına gəlməməsinin nəticələri*

Konstitusiya işinə baxılmasında iştirak edən şəxs Konstitusiya Məhkəməsinin iclasına gəlmədikdə Konstitusiya Məhkəməsi gəlməyən şəxsin iştirakı olmadan işə baxmağın mümkünlüyü haqqında iclasa gələn tərəfin və ya maraqlı subyektin mülahizələrini dinləyir və məhkəmə baxışını davam etdirmək və ya işə baxılmasını başqa vaxta keçirmək haqqında qərardad çıxarır.

***M a d d ə 4 4 .*** *Şahidlərin dənlənilənədək Konstitusiya Məhkəməsinin iclas salonundan çıxarılması*

Konstitusiya işinə baxılmasında iştirak edən şahidlər dənlənilənədək Konstitusiya Məhkəməsinin iclas salonundan çıxarılırlar.

***M a d d ə 4 5 .*** *Məruzəçi-hakimin çıxışı*

Konstitusiya işinə mahiyyəti üzrə baxılması məruzəçi-hakimin çıxışı ilə başlanır. Məruzəçi-hakim çıxışında baxılan məsələnin mahiyyətini izah edir, konstitusiya işinin hallarını təhlil edir, konstitusiya işində olan sənədlərin qısa məzmunu və məsələnin hazırlanması üçün görülən tədbirlər haqqında məlumat verir.

Məruzəçi-hakim çıxışında konstitusiya işinin müqəddəratı haqqında fikir söyləməməlidir. Konstitusiya Məhkəməsinin hakimləri məruzəçi-hakimə suallar verə bilərlər.

***M a d d ə 4 6 .*** *Vəsatətlərin həlli*

Konstitusiya işinə baxılarkən tərəflər, maraqlı subyektlər və ekspertlər Konstitusiya Məhkəməsinə vəsatətlər verə bilərlər.

Yazılı verilmiş vəsatətləri Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin tapşırığı ilə məhkəmə iclasının katibi elan edir və konstitusiya işinə qoşur.

Vəsatət Konstitusiya Məhkəməsinin həmin iclasında Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlarla təmin və ya rədd olunur.

***M a d d ə 4 7 .*** *Konstitusiya Məhkəməsinin yeni sübutlar cəlb etmə hüququ*

Konstitusiya işinə baxılarkən Konstitusiya Məhkəməsi iclasa yeni şahidlərin və ekspertlərin çağırılması və dinlənilməsi, əlavə sənədlərin və materialların cəlb edilməsi haqqında qərardad çıxara bilər.

***M a d d ə 4 8 .*** *Konstitusiya məhkəmə icraatı zamanı tərəflərin çıxışı*

Konstitusiya məhkəmə icraatı zamanı məruzəçi-hakimin çıxışından sonra Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən tərəflərə çıxış üçün söz verir. Birinci sorğuverən çıxış edir, sonra cavabverənə söz verilir.

Tərəfləri bir neçə nümayəndə təmsil edə bilər. Tərəfləri təmsil edən bütün nümayəndələr çıxış edə bilərlər.

Sorğuverən çıxışında məsələnin mahiyyətini izah edir, mövqeyini əsaslandırmaq üçün sübutları təqdim edir.

Cavabverən çıxışında sorğu ilə bağlı öz mövqeyini bildirir, mövqeyini əsaslandırmaq üçün sübutları təqdim edir.

Hər bir tərəfin çıxışından sonra Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən hakimlərə çıxış etmiş tərəfə sual vermək imkanı yaradır. Bundan sonra sual vermək imkanı başqa tərəfə verilir.

***M a d d ə 4 9 .*** *Xüsusi konstitusiya icraatı zamanı maraqlı subyektlərin çıxışı*

Xüsusi konstitusiya icraatı zamanı məruzəçi-hakimin çıxışından sonra Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən maraqlı subyektlərə çıxış üçün söz verir. Birinci Azərbaycan Respublikasının Konstitusiyası ilə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verilmiş subyektlərin nümayəndələr i çıxış edir, sonra bu cür müraciətlər əsasında mənafelərinə toxunulan orqanların nümayəndələrinə və şəxslərə söz verilir.

Maraqlı subyektləri bir neçə nümayəndə təmsil edə bilər. Maraqlı subyektləri bir neçə nümayəndə təmsil edə bilər. Maraqlı subyektləri təmsil edən bütün nümayəndələr çıxış edə bilərlər.

Azərbaycan Respublikasının Konstitusiyası ilə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verilmiş orqanın nümayəndəsi çıxışında müraciətinin səbəblərini izah edir və Konstitusiya Məhkəməsindən istədiyi qərar haqqında fikir söyləyir.

Bu cür müraciətlər əsasında mənafelərinə toxunulan orqanların nümayəndələri və ya mənafelərinə toxunulan şəxslərin özləri, yaxud nümayəndələri xüsusi konstitusiya icraatında iştirak etdikdə öz çıxışlarında müraciətlə bağlı mövqelərini bildirir və əsaslandırırlar.

Hər bir maraqlı subyektin çıxışından sonra Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən hakimlərə çıxış etmiş maraqlı subyektə sual vermək imkanı yaradır. Bundan sonra sual vermək imkanı başqa maraqlı subyektə verilir.

***M a d d ə 5 0 .*** *Şahidlərin dinlənilməsi*

Şahidlərin dinlənilməsi sorğuverən i n şahidlərinin və ya Azərbaycan Respublikasının Konstitusiyası ilə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verilmiş subyektin şahidlərinin dinlənilməsi ilə başlanır, bundan sonra cavabverənin şahidləri və ya Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə edilmiş müraciət əsasında mənafelərinə toxunulan subyektin şahidləri və axırda Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə çıxarılmış şahidləri dinlənilir.

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən hər bir şahidə konstitusiya işi üzrə bildiyi məlumatları Konstitusiya Məhkəməsinə söyləməyi təklif edir. Şahidin çıxışından sonra ona suallar verilə bilər. Şahidə birinci olaraq sorğuverən və ya Azərbaycan Respublikasının Konstitusiyası ilə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verilmiş subyekt, sonra isə cavabverən və ya Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə edilmiş müraciət əsasında mənafelərinə toxunulan subyekt suallar verirlər.

Konstitusiya Məhkəməsinin hakimləri şahidlərin dinlənildiyi hər bir vaxt onlara suallar verə bilərlər.

***M a d d ə 5 1 .*** *Sənədlərin elan edilməsi*

Konstitusiya işinə qoşulmuş və ya məhkəmə iclasında məhkəməyə təqdim olunmuş sənədlər Konstitusiya Məhkəməsinin iclasında elan edilir. Bundan sonra tərəflər və ya maraqlı subyektlər sənədlərin elan edilməsi ilə bağlı izahat verə bilərlər.

Konstitusiya Məhkəməsinin iclasında təqdim olunmuş sənədlər konstitusiya işinə Konstitusiya Məhkəməsinin qərardadına əsasən qoşulur.

***M a d d ə 5 2 .*** *Ekspertlərin dinlənilməsi*

Ekspertlərin dinlənilməsi sorğuverənin ekspertlərinin və ya Azərbaycan Respublikasının Konstitusiyası ilə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verilmiş subyektin ekspertlərinin dinlənilməsi ilə başlanır, bundan sonra cavabverənin ekspertləri və ya Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə edilmiş müraciət əsasında mənafelərinə toxunulan subyektin ekspertləri və axırda Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə çıxarılmış ekspertlər dinlənilir.

Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən hər bir ekspertə konstitusiya işinə dair rəyini Konstitusiya Məhkəməsinə söyləməyi təklif edir. Ekspertin çıxışından sonra ona suallar verilə bilər. Ekspertə birinci olaraq sorğuverən və ya Azərbaycan Respublikasının Konstitusiyası ilə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verilmiş subyekt, sonra isə cavabverən və ya Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə edilmiş müraciət əsasında mənafelərinə toxunulan subyektlər sual verirlər.

Konstitusiya Məhkəməsinin hakimləri ekspertlərin dinlənildiyi hər bir vaxt onlara suallar verə bilərlər.

***M a d d ə 5 3 .*** *Tərəflərin yekun çıxışları və maraqlı subyektlərin yekun sözü*

Konstitusiya məhkəmə icraatı zamanı tərəflər Konstitusiya Məhkəməsinin iclasında baxılan konstitusiya işinin həlli ilə əlaqədar yoxlanılan materialların və sübutların təhlilini, onların hüquqi qiymətini, baxılan işin həlli üçün əhəmiyyətini, habelə Konstitusiya Məhkəməsinin qərar çıxararkən nəzərə almalı olduğu məsələləri əhatə edən yekun çıxışı edə bilərlər.

Konstitusiya Məhkəməsi tərəflərə yekun çıxışına hazırlaşmaq üçün vaxt verə bilər.

Xüsusi Konstitusiya icraatı zamanı maraqlı subyektlər Konstitusiya Məhkəməsinin iclasında baxılan Konstitusiya işinin həllinə, Konstitusiya Məhkəməsinin qərar çıxararkən nəzərə almalı olduğu məsələlərə dair yekun sözü söyləyə bilərlər.

Tərəflərin yekun çıxışlarından və maraqlı subyektlərin yekun sözündən sonra Konstitusiya Məhkəməsi müşavirə otağına getmək haqqında qərardad çıxarır.

Əgər tərəflərin yekun çıxışlarından və ya maraqlı subyektlərin yekun sözlərindən sonra Konstitusiya işi üzrə tədqiqatın tam və hərtərəfli aparılmadığı aşkar olunarsa, Konstitusiya Məhkəməsi məhkəmə təhqiqatının davam etdirilməsi haqqında qərardad çıxara bilər.

***M a d d ə 5 4 .*** *Məhkəmə iclasının protokolu*

Məhkəmə iclasının katibi Konstitusiya Məhkəməsi iclasının protokolunu aparır. Məhkəmə iclasının protokolunda aşağıdakılar göstərilməlidir:

1) Konstitusiya Məhkəməsi iclasının keçirildiyi tarix;
2) Konstitusiya Məhkəməsi iclasının keçirildiyi yer;
3) Konstitusiya Məhkəməsi iclasına sədrlik edənin adı, atasının adı, soyadı;
4) Konstitusiya Məhkəməsinin iclasında iştirak edən Konstitusiya Məhkəməsi hakimlərinin adı, atasının adı, soyadı;
5) Konstitusiya Məhkəməsi iclasının məhkəmə iclas katibinin adı, atasının adı, soyadı;
6) Konstitusiya Məhkəməsi iclasının gündəliyi;
7) Konstitusiya işinə baxılmasında iştirak edən tərəflər, maraqlı subyektlər və onların nümayəndələri haqqında məlumat;
8) Konstitusiya işinə baxılmasında iştirak edən tərəflərin, maraqlı subyektlərin, şahidlərin, ekspertlərin gəlməsi haqqında məlumat;
9) Konstitusiya Məhkəməsinin hərəkətləri haqqında onların baş verdiyi ardıcılıqla məlumat;
10) Məruzəçi-hakimin çıxışı, tərəflərin, maraqlı subyektlərin çıxışları və vəsatətləri, onlara verilən suallar və suallara cavablar;
11) Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin sərəncamları və Konstitusiya Məhkəməsinin çıxardığı qərardadlar;
12) Şahidlərin və ekspertlərin çıxışları, onlara verilən suallar və suallara cavablar;
13) Tərəflərin yekun çıxışları və ya maraqlı subyektlərin yekun sözləri.

Konstitusiya Məhkəməsi iclasının protokolunun hər səhifəsi Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən və məhkəmə iclasının katibi tərəfindən imzalanır və Konstitusiya işinə qoşulur.

Tərəflər və ya maraqlı subyektlər Konstitusiya Məhkəməsi iclasının protokolu ilə tanış ola və ona dair öz qeydlərini verə bilərlər.

Konstitusiya Məhkəməsi iclasının protokoluna dair qeydlərə Konstitusiya Məhkəməsi on gün ərzində baxmalı və qeydlərin protokola qoşulması, yaxud rədd edilməsi haqqında əsaslandırılmış qərar qəbul etməlidir.

A l t ı n c ı f ə s i l

## MÜXTƏLİF NÖV KONSTİTUSİYA İŞLƏRİ ÜZRƏ KONSTİTUSİYA İCRAATININ XÜSUSİYYƏTLƏRİ

***M a d d ə 5 5 .*** *Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə sorğu verilməsi qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə yazılı sorğu verilir.

Sorğuda aşağıdakılar göstərilməlidir:

1) Konstitusiya Məhkəməsinin adı;
2) Sorğuverən orqanın adı və ünvanı;
3) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş aktın adı və qəbul edildiyi (imzalandığı) tarix, onu qəbul edən orqanın adı və dərc olunduğu mənbə;
4) Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu və Konstitusiya Məhkəməsi tərəfindən sorğuya baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddəsi;
5) sorğuverən orqanın tələbinin əsaslandırılması;
6) sorğuverən orqanın tələbi;
7) sorğuya qoşulan sənədlərin və materialların siyahısı;
8) sorğuverən tərəfdən Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək şəxslərin siyahısı;
9) sorğuverən orqanın rəhbərinin imzası.

Sorğuya aşağıdakı sənədlər qoşulmalıdır:

1) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş aktın surəti;
2) Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək sorğuverən orqanın nümayəndəsinin səlahiyyətlərini təsdiq edən sənəd.

***M a d d ə 5 6 .*** *Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinin sorğuya baxmaqdan imtina etməsi*

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş hallarda sorğuya baxmaqdan aşağıdakı əsaslarla imtina edir:

sorğu Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olmadıqda;

sorğu Konstitusiya Məhkəməsinə sorğu vermək hüququ olmayan orqan və ya vəzifəli şəxs tərəfindən verildikdə;

eyni sorğuya əvvəllər Konstitusiya Məhkəməsi tərəfindən baxıldıqda və bu barədə Konstitusiya Məhkəməsinin qüvvədə olan qərarı mövcud olduqda;

sorğu bu Qanunun 55-ci maddəsinin tələblərinə uyğun tərtib edilmədikdə.

***M a d d ə 5 7 .*** *Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş hallarda sorğuya baxılması müddəti*

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş və Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu haqqında məsələ 7 gün müddətində Konstitusiya Məhkəməsinin iclasına çıxarılır və sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunur.

Sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunduğu gündən ən geci 7 gün keçənədək sorğuverən orqana və ya vəzifəli şəxsə göndərilir.

Qəbul edilmiş sorğuya Konstitusiya Məhkəməsində mahiyyəti üzrə baxılması 60 gündən gec olmayaraq başlanmalıdır.

Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına, hökumətlərarası müqavilələrinin isə Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu haqqında sorğuya baxılanadək həmin müqavilələr təsdiq edilməməlidir.

***M a d d ə 5 8 .*** *Siyasi partiyaların və digər ictimai birliklərin ləğv edilməsi barədə sorğu verilməsi qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 7-ci bəndində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə yazılı sorğu verilir.

Sorğuda aşağıdakılar göstərilməlidir:

1) Konstitusiya Məhkəməsinin adı;
2) sorğuverən orqanın adı və ünvanı;
3) cavabverən siyasi partiyanın və ya ictimai birliyin adı və ünvanı;
4) Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu və Konstitusiya Məhkəməsi tərəfindən sorğuya baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddəsi;
5) siyasi partiyanın və ya ictimai birliyin ləğvi barədə sorğuverən orqanın tələbinin əsaslandırılması;
6) siyasi partiyanın və ya ictimai birliyin ləğvi barədə sorğuverən orqanın tələbi;
7) sorğuya qoşulan sənədlərin və materialların siyahısı;
8) sorğuverən tərəfindən Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək şəxslərin siyahısı;
9) sorğuverən orqanın rəhbərinin imzası.

Sorğuya Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək sorğuverən orqanın nümayəndəsinin səlahiyyətlərini təsdiq edən sənəd qoşulur.

***M a d d ə 5 9 .*** *Siyasi partiyaların və digər ictimai birliklərin ləğvi barədə sorğuya baxmaqdan imtina edilməsi*

Konstitusiya Məhkəməsi siyasi partiyaların və digər ictimai birliklərin ləğv edilməsi barədə sorğuya baxmaqdan aşağıdakı hallarda imtina edir:

sorğu Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan qaydada dövlət qeydiyyatından keçməmiş siyasi partiyanın və ya ictimai birliyin ləğvi barədə olduqda;

sorğu Konstitusiya Məhkəməsinə sorğu vermək hüququ olmayan orqan və ya vəzifəli şəxs tərəfindən verildikdə;

sorğu bu Qanunun 58-ci maddəsinin tələblərinə uyğun tərtib edilmədikdə.

***M a d d ə 6 0 .*** *Siyasi partiyaların və digər ictimai birliklərin ləğv edilməsi barədə sorğuya baxılması müddəti*

Siyasi partiyaların və digər ictimai birliklərin ləğv edilməsi barədə Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu haqqında məsələ 3 gün müddətində Konstitusiya Məhkəməsinin iclasına çıxarılır və sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunur.

Sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunduğu gün sorğuverən orqana və ya vəzifəli şəxsə habelə siyasi partiyaya və ya ictimai birliyə göndərilir. Qəbul edilmiş sorğuya Konstitusiya Məhkəməsində mahiyyəti üzrə baxılması 15 gündən gec olmayaraq başlanmalıdır.

***M a d d ə 6 1 .*** *Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğu verilməsi qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 9-cu bəndində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə yazılı sorğu verilir.

Sorğuda aşağıdakılar göstərilməlidir:

1) Konstitusiya Məhkəməsinin adı;
2) sorğuverən orqanın adı və ünvanı;
3) cavabverən hakimiyyət orqanının adı və ünvanı;
4) Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu və Konstitusiya Məhkəməsi tərəfindən sorğuya baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddəsi;
5) cavabverən orqanın hakimiyyət bölgüsünü pozduğunun sorğuverən orqan tərəfindən əsaslandırılması;
6) sorğuverən orqanın cavabverən hakimiyyət orqanına tələbi;
7) sorğuya qoşulan sənədlərin və materialların siyahısı;
8) sorğuverən tərəfindən Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək şəxslərin siyahısı;
9) sorğuverən orqanın rəhbərinin imzası.

Sorğuya Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək sorğuverən orqanın nümayəndəsinin səlahiyyətlərini təsdiq edən sənəd qoşulur.

***M a d d ə 6 2 .*** *Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğuya baxmaqdan imtina edilməsi*

Konstitusiya Məhkəməsi qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğuya baxmaqdan aşağıdakı hallarda imtina edir:

sorğu qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səlahiyyətlər bölgüsü ilə bağlı olmadıqda;

sorğu Konstitusiya Məhkəməsinə sorğu vermək hüququ olmayan orqan və ya vəzifəli şəxs tərəfindən verildikdə;

sorğu bu Qanunun 61-ci maddəsinin tələblərinə uyğun tərtib edilmədikdə.

***M a d d ə 6 3 .*** *Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğuya baxılması müddəti*

Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğu haqqında məsələ 7 gün müddətində Konstitusiya Məhkəməsinin iclasına çıxarılır və sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunur.

Sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunduğu gün sorğuverən orqana və ya vəzifəli şəxsə göndərilir.

Qəbul edilmiş sorğuya Konstitusiya Məhkəməsində mahiyyəti üzrə baxılması 20 gündən gec olmayaraq başlanmalıdır.

***M a d d ə 6 4 .*** *Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə sorğuların verilməsi qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsinə yazılı sorğu verilir.

Sorğuda aşağıdakılar göstərilməlidir:

1) Konstitusiya Məhkəməsinin adı;

2) sorğuverən orqanın adı və ünvanı;

3) şərh edilməsi xahiş olunan normativ hüquqi aktı qəbul etmiş orqanın adı və ünvanı;

4) Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu və Konstitusiya Məhkəməsi tərəfindən sorğuya baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddəsi;

5) şərh edilməsi xahiş olunan normativ hüquqi aktın adı və qəbul edildiyi tarix;

6) sorğuverən orqanın xahişinin məzmunu;

7) sorğuya qoşulan sənədlərin və materialların siyahısı;

8) sorğuverən tərəfindən Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək şəxslərin siyahısı;

9) sorğuverən orqanın rəhbərinin imzası.

Sorğuya aşağıdakı sənədlər qoşulmalıdır:

1) şərh edilməsi xahiş olunan normativ hüquqi aktın mətninin surəti;

2) Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək sorğuverən orqanın nümayəndəsinin səlahiyyətlərini təsdiq edən sənəd.

***M a d d ə 6 5 .*** *Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə sorğuya baxmaqdan imtina edilməsi*

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə sorğuya baxmaqdan aşağıdakı hallarda imtina edir:

sorğu Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olmadıqda;

sorğu Konstitusiya Məhkəməsinə sorğu vermək hüququ olmayan orqan və ya vəzifəli şəxs tərəfindən verildikdə;

sorğu bu Qanunun 64-cü maddəsinin tələblərinə uyğun tərtib edilmədikdə.

***M a d d ə 6 6 .*** *Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə sorğuya baxılması müddəti*

Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu haqqında məsələ 7 gün müddətində Konstitusiya Məhkəməsinin iclasına çıxarılır və sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunur.

Sorğunun qəbul edilməsi və ya sorğuya baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunduğu gündən ən geci 7 gün keçənədək sorğuverən orqana və ya vəzifəli şəxsə göndərilir.

Qəbul edilmiş sorğuya Konstitusiya Məhkəməsində mahiyyəti üzrə baxılması 60 gündən gec olmayaraq başlanmalıdır.

***M a d d ə 6 7 .*** *Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciətinə baxılması qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin III hissəsində nəzərdə tutulmuş halda Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiya Məhkəməsinə yazılı müraciət haqqında müvafiq qərar qəbul edir.

Müraciətdə aşağıdakılar göstərilməlidir:

1) Konstitusiya Məhkəməsinin adı;

2) Azərbaycan Respublikası Milli Məclisinin müraciətini qəbul etmiş Azərbaycan Respublikası Milli Məclisi iclasının keçirildiyi tarix;

3) Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnu və Konstitusiya Məhkəməsi tərəfindən həmin müraciətə baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddəsi;

4) Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətinin tamamilə itirdiyi barədə məlumatın mənbəyi;

5) müraciətə qoşulan sənədlərin və materialların siyahısı;

6) Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Konstitusiya Məhkəməsinin iclasında iştirak edəcək şəxslərin siyahısı;

7) Azərbaycan Respublikası Milli Məclisi sədrinin imzası.

***M a d d ə 6 8 .*** *Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciətinə baxmaqdan imtina edilməsi*

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciətinə baxmaqdan aşağıdakı hallarda imtina edir:

müraciəti qəbul etmiş Azərbaycan Respublikası Milli Məclisinin iclasında Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş yetərsay olmadıqda və ya müraciət lazımi səs çoxluğu toplamadıqda;

sorğu bu Qanunun 67-ci maddəsinin tələblərinə uyğun tərtib edilmədikdə.

***M a d d ə 6 9 .*** *Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciətinə baxılması müddəti*

Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə

məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciətinin Konstitusiya Məhkəməsinə daxil olduğu günün ertəsi günü Konstitusiya Məhkəməsinin iclasına çıxarılır və müraciətin qəbul edilməsi və ya müraciətə baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunur.

Müraciətin qəbul edilməsi və ya müraciətə baxmaqdan imtina edilməsi haqqında qərardad Konstitusiya Məhkəməsinin azı 5 hakiminin səs çoxluğu ilə qəbul edilir. Müraciətin qəbul edilməsi və ya müraciətə baxmaqdan imtina edilməsi haqqında qərardad qəbul olunduğu gün Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Milli Məclisinə göndərilir.

Qəbul edilmiş müraciətə Konstitusiya Məhkəməsində mahiyyəti üzrə baxılması 3 gündən gec olmayaraq başlanmalıdır.

Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi ilə əlaqədar vəzifəsindən kənarlaşdırılması barədə Konstitusiya Məhkəməsinin qərarı Konstitusiya Məhkəməsi hakimlərinin 6 səs çoxluğu ilə qəbul edilir.

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi faktını təsdiq etmədikdə, məsələ bununla bitmiş sayılır və bu barədə dərhal Azərbaycan Respublikasının Milli Məclisinə yazılı məlumat göndərilir.

***M a d d ə  7 0 .*** *Azərbaycan Respublikası Prezidentinin istefa ərizəsinə baxılması qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin II hissəsində nəzərdə tutulmuş halda Azərbaycan Respublikasının Prezidenti Konstitusiya Məhkəməsinə yazılı ərizə verir.

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin istefa ərizəsinə baxmaqdan imtina edə bilməz.

Azərbaycan Respublikası Prezidentinin istefa ərizəsi Konstitusiya Məhkəməsinə daxil olduğu gündən ən geci 3 gün keçənədək Konstitusiya Məhkəməsində mahiyyəti üzrə baxılmalıdır.

İstefa ərizəsini Azərbaycan Respublikası Prezidentinin özünün könüllü verdiyi əmin olduğu təqdirdə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin istefasının qəbul olunması haqqında qərar çıxarmalıdır.

İstefa ərizəsini Azərbaycan Respublikası Prezidentinin özünün könüllü verdiyinə əmin olmadığı təqdirdə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin istefasının qəbul olunmaması haqqında qərar çıxarır.

Konstitusiya Məhkəməsi bu qərarları hakimlərin 5 səs çoxluğu ilə qəbul edir və dərhal Azərbaycan Respublikasının Milli Məclisinə göndərir.

***M a d d ə  7 1 .*** *Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında məsələyə baxılması qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 107-ci maddəsinin I hissəsinə görə, Azərbaycan Respublikasının Prezidenti ağır cinayət törətdikdə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması təşəbbüsü ilə çıxış edə bilər.

Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması məsələsinə baxılmasını Konstitusiya Məhkəməsinin azı 3 hakimi təklif edə bilər. Həmin təklif yazılı şəkildə Konstitusiya Məhkəməsinin sədrinə verilməlidir. Təklif daxil olduğu gündən üç gün müddətində Konstitusiya Məhkəməsinin iclası çağırılmalı və bu məsələyə baxılmalıdır. Konstitusiya Məhkəməsi təklifi əsaslı saymazsa, bu barədə 5 hakimin səs çoxluğu ilə qərar qəbul edir.

Konstitusiya Məhkəməsi təklifi əsaslı saydığı halda Azərbaycan Respublikası Prezidentinin hərəkətlərində ağır cinayət əməli əlamətlərinin olub-olmaması barədə rəy almaqdan ötrü məsələni Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərir. Bu barədə qərar Konstitusiya Məhkəməsi hakimlərinin 6 səs çoxluğu ilə qəbul edilməlidir. Azərbaycan Respublikasının Ali Məhkəməsi məsələyə daxil olduğu gündən 30 gün müddətində baxmalı və Konstitusiya Məhkəməsinə yazılı rəy göndərməlidir.

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin hərəkətlərində ağır cinayət əməl i əlamətlərinin olması qənaətinə gəlmədikdə məsələ bununla bitmiş sayılır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəyini nəzərə alaraq Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin hərəkətlərində ağır cinayət əməli əlamətlərinin olması ilə əlaqədar vəzifədən kənarlaşdırılması təşəbbüsü ilə çıxış etmək haqqında 7 hakimin səs çoxluğu ilə qərar qəbul edə bilər. Bu cür qərar qəbul edildikdə dərhal Azərbaycan Respublikasının Milli Məclisinə göndərilir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 107-ci maddəsinin II hissəsində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında qərar qəbul etdikdə, həmin qərar dərhal Konstitusiya Məhkəməsinə göndərilir. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin qərarını aldığı gündən 7 gün ərzində həmin qərar qəbul edilərkən Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərinə riayət olunmasını yoxlayır. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin qərarına tərəfdar çıxması haqqında qərarını 7 hakimin səs çoxluğu ilə qəbul etməlidir. Azərbaycan Respublikası Konstitusiyasının 107-ci maddəsinin II hissəsinə görə Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarını Konstitusiya Məhkəməsinin sədri imzalayır.

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin qərarının imzalanmasına tərəfdar çıxması haqqında qərar qəbul etməzsə, Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı qüvvəyə minmir.

***M a d d ə  7 2 .*** *Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanması və təsdiqi haqqında məsələyə baxılması qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə görə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin düzgünlüyünü yoxlayır və təsdiq edir.

Azərbaycan Respublikasının Milli Məclisinə ümumi seçkilərin nəticələrinin elan olunduğu gündən ən geci 30 gün keçənədək seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün Konstitusiya Məhkəməsinin iclası keçirilməlidir.

Azərbaycan Respublikasının Milli Məclisinə təkrar seçkilərin nəticələrinin elan olunduğu gündən ən geci 7 gün keçənədək seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün Konstitusiya Məhkəməsinin iclası keçirilməlidir.

Bu məsələyə baxılarkən bir neçə məruzəçi-hakim təyin edilə bilər.

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün keçirilən Konstitusiya Məhkəməsinin iclasında Azərbaycan Respublikasının Milli Məclisinin iclasında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə Mərkəzi Seçki Komissiyasının sədri və üzvləri iştirak edirlər, habelə deputat seçilmək haqqında vəsiqə almış şəxslər və ya onların nümayəndələri iştirak edə bilərlər.

Konstitusiya Məhkəməsi yoxlama nəticəsində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin nəticələrinin bütövlükdə təsdiq edilməsi, qismən təsdiq edilməsi və ya təsdiq edilməməsi barədə hakimlərin 5 səs çoxluğu ilə qərar qəbul edə bilər.

***M a d d ə 7 3 .*** *Yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi haqqında məsələyə baxılması qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin I hissəsinə görə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdən sonra fevralın 1-dək 83 deputatın səlahiyyətləri təsdiq edilməzsə, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtını müəyyən edir.

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin 83-cü deputatının seçildiyini fevralın 1-dən sonra təsdiq edərsə, həmin iclasda yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtını da təyin etməlidir.

Bu məsələ haqqında Konstitusiya Məhkəməsinin qərarı hakimlərin azı 5 səs çoxluğu ilə qəbul edilir.

***M a d d ə 7 4 .*** *Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair Konstitusiya Məhkəməsinin rəyinin çıxarılması ilə əlaqədar məsələyə baxılması qaydası*

Azərbaycan Respublikası Konstitusiyasının 153-cü maddəsinə görə Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təklif verərlərsə, bu barədə Konstitusiya Məhkəməsinin rəyi alınmalıdır.

Təklif olunmuş dəyişikliklərin mətni Konstitusiya Məhkəməsinə daxil olduğu gündən ən geci 7 gün keçənədək məsələ Konstitusiya Məhkəməsinin iclasına çıxarılmalıdır.

Konstitusiya Məhkəməsi təklif olunmuş dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasının prinsiplərinə uyğun olması və ya olmaması haqqında əsaslandırılmış rəy qəbul etməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının mətninə dəyişikliklər edilməsi haqqında referendum keçiriləcəksə, Konstitusiya Məhkəməsi rəyinin xülasəsi səsvermə bülleteninə daxil edilir.

## Y e d d i n c i f ə s i l

## KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QƏRARLARI VƏ QƏRARDADLARI

***M a d d ə 7 5 .*** *Konstitusiya Məhkəməsinin qərarı*

Konstitusiya Məhkəməsinin qərarı konstitusiya işinə mahiyyəti üzrə baxılması nəticəsində Konstitusiya Məhkəməsinin gəldiyi qənaəti əks etdirən və Konstitusiya Məhkəməsinin iclasında qəbul edilən yazılı sənəddir.

Azərbaycan Respublikasının Konstitusiyasında və bu Qanunda başqa qayda nəzərdə tutulmayıbsa, Konstitusiya Məhkəməsinin qərarı 5 hakimin səs çoxluğu ilə qəbul olunur.

Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası adından çıxarılır.

Konstitusiya Məhkəməsinin qərarı qətidir və heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə və ya dəyişdirilə bilməz.

Konstitusiya Məhkəməsinin qərarını həmin qərarın qəbul olunduğu Konstitusiya Məhkəməsi iclasına sədrlik edən imzalayır.

***M a d d ə 7 6 .*** *Konstitusiya Məhkəməsi qərarının çıxırılması qaydası*

Konstitusiya Məhkəməsinin qərarı müşavirə otağında çıxarılır.

Konstitusiya Məhkəməsində konstitusiya işinə baxılması qurtardıqdan sonra hakimlər qərar çıxarmaq üçün müşavirə otağına keçirlər. Müşavirə otağında yalnız konkret konstitusiya işinə baxılmasında iştirak edən hakimlər ola bilərlər. Başq a şəxslərin müşavirə otağına daxil olmasına yol verilmir.

Müşavirəni Konstitusiya Məhkəməsinin iclasına sədrlik edən aparır. Konstitusiya Məhkəməsi hakimlərinin fikir mübadiləsindən sonra açıq səsvermə keçirilir. Konstitusiya Məhkəməsinin sədri axırıncı səs verir.

Konstitusiya Məhkəməsinin hakimləri müşavirə otağında baş vermiş hallar haqqında heç bir məlumat yaymamalıdırlar.

Konstitusiya Məhkəməsinin yazılı qərarını məruzəçi-hakimlər və ya Konstitusiya Məhkəməsi sədrinin tapşırığı ilə başqa hakim hazırlayır.

***M a d d ə 7 7 .*** *Konstitusiya Məhkəməsi hakiminin xüsusi rəyi*

Konstitusiya Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsinin qərarı ilə razı olmadıqda yazılı şəkildə xüsusi rəy tərtib edə bilər. Konstitusiya Məhkəməsi hakiminin xüsusi rəyi Konstitusiya Məhkəməsinin qərarına qoşulur.

***M a d d ə 7 8 .*** *Konstitusiya Məhkəməsi qərarının məzmunu*

Konstitusiya Məhkəməsinin qərarı giriş, təsvir və nəticə hissələrindən ibarətdir.

Konstitusiya Məhkəməsi qərarının giriş hissəsində aşağıdakılar göstərilir:

qərarın adı;

qərarın çıxarılması vaxtı və yeri;

Konstitusiya Məhkəməsinin tərkibi, məhkəmə iclasının katibi, tərəflər və ya maraqlı subyektlər.

Konstitusiya Məhkəməsi qərarının təsvir hissəsində aşağıdakılar göstərilir:

konstitusiya işinin faktik halları;

konstitusiya işində olan sənədlər haqqında məlumat;

konstitusiya işinə baxılması zamanı müəyyən edilmiş faktlar;

konstitusiya işinə baxılması zamanı istifadə edilmiş normativ hüquqi aktlar haqqında məlumat.

Konstitusiya Məhkəməsi qərarının nəticə hissəsində aşağıdakılar göstərilir:

qərarın çıxarılması üçün rəhbər tutulmuş Azərbaycan Respublikası Konstitusiyasının və Azərbaycan Respublikasının başqa qanunlarının maddələri;

konstitusiya işinə dair Konstitusiya Məhkəməsinin qənaətini əsaslandıran mülahizələr;

konstitusiya işinə dair Konstitusiya Məhkəməsinin qənaəti;

qərarın dərc edilməsi və qüvvəyə minmə vaxtı.

Konstitusiya Məhkəməsinin qərarları dəlillərlə əsaslandırılmalıdır.

***M a d d ə 7 9 .*** *Konstitusiya Məhkəməsi qərarının elan edilməsi*

Konstitusiya Məhkəməsinin qərarını qəbul etdikdən sonra hakimlər məhkəmə salonuna qayıdır və sədrlik edən qərarı elan edir.

***Maddə 80.*** *Konstitusiya Məhkəməsi qərarlarının hüquqi qüvvəsi*

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə görə Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir.

Konstitusiya Məhkəməsinin qərarları qüvvəyə mindikdən sonra hökmən icra olunmalıdır. Konstitusiya Məhkəməsinin qərarlarını icra etməyən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyəti daşıyırlar.

***Maddə 81.*** *Konstitusiya Məhkəməsi qərarlarının qüvvəyə minməsi vaxtı*

Konstitusiya Məhkəməsinin qərarları aşağıda göstərilən vaxtlardan qüvvəyə minir:

1) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1—6-cı və 8-ci bəndlərində nəzərdə tutulmuş hallarla əlaqədar qəbul olunmuş qərarlar — qərarın özündə göstərilən vaxtdan;

2) siyasi partiyaların və digər ictimai birliklərin ləğv edilməsi, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü — Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə qərarlar dərc olunduğu gündən;

3) Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid başqa məsələlər barədə qərarlar — elan olunduğu gündən.

***Maddə 82.*** *Konstitusiya Məhkəməsinin qərarı ilə qanunların və digər aktların qüvvədən düşməsi və qüvvəyə minməməsi*

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə görə qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir.

***Maddə 83.*** *Konstitusiya Məhkəməsi qərarlarının rəsmi təfsir edilməsinin yolverilməzliyi*

Konstitusiya Məhkəməsinin qərarlarını heç kəs rəsmi təfsir edə bilməz.

***Maddə 84.*** *Konstitusiya Məhkəməsinin qərardadları*

Konstitusiya Məhkəməsinin icraatına məsələlərin qəbul edilməsi barədə Konstitusiya Məhkəməsinin iclaslarında yaranan məsələlərin həlli üçün və bu Qanunla nəzərdə tutulmuş başqa hallarda Konstitusiya Məhkəməsi qərardadlar qəbul edir.

Konstitusiya Məhkəməsinin qərardadları Konstitusiya Məhkəməsinin iclaslarında azı 5 hakimin səs çoxluğu ilə qəbul edilir.

Konstitusiya işinə baxılarkən qəbul edilmiş qərardadlar Konstitusiya Məhkəməsi iclasının protokolunda əks olunur. Konstitusiya Məhkəməsinin başqa qərardadları isə dərc edilir.

***Maddə 85.*** *Konstitusiya Məhkəməsinin qərar və qərardadlarının dərc edilməsi*

Konstitusiya Məhkəməsinin qərarları və dərc olunmalı qərardadları Azərbaycan Respublikasının rəsmi dövlət qəzetində dərc olunur.

Konstitusiya Məhkəməsinin bütün qərar və qərardadları, Konstitusiya Məhkəməsinin açıq iclaslarının stenoqramları və Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı başqa materiallar "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc olunur.

## Səkkizinci fəsil

## KONSTİTUSİYA MƏHKƏMƏSİNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ TƏMİNATLARI

***Maddə 86.*** *Konstitusiya Məhkəməsinin daxili nizamnaməsi*

Konstitusiya Məhkəməsi öz işinin təşkili üçün qərarla təsdiq olunan Daxili Nizamnaməsini qəbul edir.

***Maddə 87.*** *Konstitusiya Məhkəməsinin rəmzləri*

Konstitusiya Məhkəməsinin rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Konstitusiya Məhkəməsinin rəsmi emblemidir.

Konstitusiya Məhkəməsinin hakimləri yeni seçilmiş Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində və Konstitusiya Məhkəməsinin iclaslarında xüsusi geyimdə olmalıdırlar.

Konstitusiya Məhkəməsinin rəsmi embleminin və Konstitusiya Məhkəməsi hakiminin xüsusi geyiminin təsvirləri və əsasnamələri Konstitusiya Məhkəməsinin qərarı ilə təsdiq edilir.

***Maddə 88.*** *Konstitusiya Məhkəməsi hakiminin döş nişanı və vəsiqəsi*

Konstitusiya Məhkəməsinin hakiminə döş nişanı və vəsiqə verilir.

Döş nişanının və vəsiqənin təsvirləri və əsasnamələri Konstitusiya Məhkəməsinin qərarı ilə təsdiq edilir.

***Maddə 89.*** *Konstitusiya Məhkəməsinin möhürü*

Konstitusiya Məhkəməsinin möhürü vardır. Möhürün üstündə Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilir və Konstitusiya Məhkəməsinin adı yazılır.

Konstitusiya Məhkəməsi möhürünün təsviri Konstitusiya Məhkəməsinin qərarı ilə təsdiq edilir.

***Maddə 90.*** *Konstitusiya məhkəməsinin yeri*

Konstitusiya Məhkəməsi Bakı şəhərində yerləşir.

Konstitusiya Məhkəməsinin iclasları Konstitusiya Məhkəməsinin binasında keçirilir. Hər hansı səbəbdən Konstitusiya Məhkəməsinin iclaslarını Konstitusiya Məhkəməsinin binasında keçirmək mümkün olmadıqda Konstitusiya Məhkəməsi sədrinin sərəncamı ilə Konstitusiya Məhkəməsinin iclasları başqa yerdə keçirilə bilər.

Konstitusiya Məhkəməsi binasının rejimi Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

***Maddə 91.*** *Konstitusiya Məhkəməsinin fəaliyyətinin maliyyələşdirilməsi*

Konstitusiya Məhkəməsinin fəaliyyəti Azərbaycan Respublikası dövlət büdcəsindən maliyyələşdirilir. Konstitusiya Məhkəməsinin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsait ötən maliyyə ilinə nisbətən azaldıla bilməz.

***Maddə 92.*** *Konstitusiya Məhkəməsi hakimlərinin əmək haqqı və pul təminatı*

Konstitusiya Məhkəməsinin sədri hər ay Azərbaycan Respublikası Milli Məclisi sədrinin aylıq əmək haqqına bərabər məbləğdə əmək haqqı alır.

Konstitusiya Məhkəməsi sədrinin müavini hər ay Konstitusiya Məhkəməsi sədrinin aylıq əmək haqqının 90 faizi məbləğində əmək haqqı alır.

Konstitusiya Məhkəməsinin hakimi hər ay Konstitusiya Məhkəməsi sədrinin aylıq əmək haqqının 80 faizi məbləğində əmək haqqı alır.

Konstitusiya Məhkəməsinin hakimi hər ay öz səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərinin ödənilməsi üçün vergilərdən azad olunan pul təminatı alır.

Konstitusiya Məhkəməsi hakiminin müalicə olunması və istirahət etməsi üçün ona məzuniyyətə çıxdığı vaxt iki aylıq əmək haqqı məbləğində pul təminatı verilir.

***M a d d ə 9 3 .*** *Konstitusiya Məhkəməsi hakiminin məzuniyyətləri*

Konstitusiya Məhkəməsinin hakiminə hər il 40 təqvim günü müddətində məzuniyyət verilir.
Konstitusiya Məhkəməsinin hakiminə məzuniyyəti Konstitusiya Məhkəməsinin sədri verir.
Konstitusiya Məhkəməsinin bir hakimi məzuniyyətdə olduğu vaxt başqa hakimlərə məzuniyyət vermək qadağandır.

***M a d d ə 9 4 .*** *Konstitusiya Məhkəməsi hakiminin başqa təminatları*

Konstitusiya Məhkəməsinin hakimi hərbi çağırışdan və hərbi toplanışdan azad olunur.

Konstitusiya Məhkəməsi hakiminin həyatı və sağlamlığı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına onun 5 illik vəzifə maaşı məbləğində sığorta edilir.

Bakı və Sumqayıt şəhərlərində, habelə Abşeron rayonunun hüdudlarında mənzili olmayan Konstitusiya Məhkəməsinin hakiminə xidməti mənzil verilir.

Konstitusiya Məhkəməsi hakiminin daimi yaşadığı yer telefonla təchiz edilir.

Səlahiyyət müddəti qurtardıqdan sonra pensiya yaşın a çatmış Konstitusiya Məhkəməsinin sabiq hakimi Konstitusiya Məhkəməsi hakiminin aylıq vəzifə maaşının 80 faizi məbləğində pensiya alır.

***M a d d ə 9 5 .*** *Konstitusiya Məhkəməsinin aparatı*

Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını Konstitusiya Məhkəməsinin aparatı həyata keçirir.

Konstitusiya Məhkəməsinin aparatı Konstitusiya Məhkəməsi sədrinin təsdiq etdiyi Konstitusiya Məhkəməsinin aparatı haqqında Əsasnaməyə müvafiq fəaliyyət göstərir.

Konstitusiya Məhkəməsi öz fəaliyyətinin təminatı üçün kitabxanasını, nəşriyyatını və elmi-tədqiqat mərkəzini yarada bilər.

Konstitusiya Məhkəməsi aparatının strukturunu, ştat cədvəlini, saxlanılması xərclərinin smetasını, işçilərinin əmək haqqını Konstitusiya Məhkəməsinin sədri müəyyən edir.

Konstitusiya Məhkəməsinin aparatına rəhbərliyi Konstitusiya Məhkəməsinin sədri həyata keçirir.

***M a d d ə 9 6 .*** *Konstitusiya Məhkəməsi aparatının vəzifələri*

Konstitusiya Məhkəməsinin aparatı:
Konstitusiya Məhkəməsinin və onun hakimlərinin işini təmin edir;
Konstitusiya Məhkəməsinin işi üçün zəruri olan arayışları və başqa informasiya məlumatlarını hazırlayır;
Konstitusiya Məhkəməsini məhkəmə iclas katibləri ilə təmin edir;
Konstitusiya Məhkəməsi iclaslarının stenoqrama alınması işini aparır;
Konstitusiya Məhkəməsinin kargüzarlığını aparır;
Konstitusiya Məhkəməsi sənədlərinin qeydiyyatını və saxlanılmasını təmin edir;
Konstitusiya Məhkəməsinin və onun hakimlərinin fəaliyyəti ilə əlaqədar maddi-texniki, maliyyə və təsərrüfat məsələlərini həll edir;
Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə əlaqədar Konstitusiya Məhkəməsi sədrinin və sədr müavininin, hakimlərin ayrı-ayrı tapşırıqlarını yerinə yetirir;
Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə əlaqədar yaranan başqa vəzifələri həyata keçirir.

***M a d d ə 9 7 .*** *Konstitusiya Məhkəməsi aparatının işçilərinin hüquq və vəzifələri*

Konstitusiya Məhkəməsi aparatının işçilərini Konstitusiya Məhkəməsinin sədri işə götürür və işdən azad edir.

Konstitusiya Məhkəməsi aparatının işçilərinin hüquqları, vəzifələri və məsuliyyəti Azərbaycan Respublikasının əmək qanunvericiliyi və Konstitusiya Məhkəməsinin aparatı haqqında Əsasnamə ilə müəyyən edilir.

***M a d d ə 9 8 .*** *Qanunun qüvvəyə minməsi*

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.
İlk dəfə təşkil edilən Konstitusiya Məhkəməsi azı 6 hakiminin vəzifəyə təyin edildiyi və and içdiyi gündən fəaliyyətə başlayır.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 21 oktyabr 1997-ci il
384-IQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 23 dekabr 2003-cü il tarixli **561-IIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 9**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 23 dekabr 2003-cü il tarixli **561-IIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 9**) ilə qüvvədən düşmüş hesab edilmişdir.